**UOT 341.2; 341.241.14**

# PANDEMİYA ŞƏRAİTİNDƏ ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN HÜQUQLARININ QORUNMASINDA OMBUDSMANIN ROLU

**S.Y.ƏLİYEVA**
***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)***
***ombudsman@ombudsman.az***

*Müasir dövr üçün çox aktual bir mövzuya həsr olunmuş bu məqalədə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) yeni növ koronavirus (COVID-19) pandemiyası dövründə əlilliyi olan şəxslərin hüquqlarının daha səmərəli müdafiəsi sahəsində fəaliyyəti, o cümlədən irəli sürdüyü müvafiq təklif və tövsiyələr elmi-praktik baxımdan təhlil edilmişdir. Eyni zamanda əlilliyi olan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə həyata keçirilmiş monitorinq və başçəkmələr barədə məlumatlar öz əksini tapmışdır.*

**Açar sözlər:** koronavirus (COVID-19), pandemiya, karantin rejimi, əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, Ombudsman, təkliflər, monitorinq mexanizmi, Milli Preventiv Mexanizm

Məlum olduğu kimi, 2019-cu ilin dekabr ayında aşkar olunan və 2020-ci ilin yanvar ayından etibarən dünyada sürətlə yayılmağa başlayan yeni növ koronavirusla (COVID-19) əlaqədar Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən 2020-ci il 11 mart tarixindən pandemiya elan edilmişdir [1].

2020-ci ilin fevral ayından Azərbaycanda da yayılmağa başlayan COVID-19 infeksiyasının qarşısının alınması məqsədilə ilk günlərdən başlayaraq dövlət və hökumət tərəfindən profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır [2].

Təbii ki, COVID-19 virusunun qlobal şəkildə yayılması nəticəsində dünya dövlətləri, o cümlədən də Azərbaycan Respublikası tərəfindən yoluxmaların qarşısının alınması və vətəndaşlara təsirinin azaldılması məqsədilə bir sıra addımlar atılmış və bu sahədə işlər hazırda da davam etdirilməkdədir.

Nazirlər Kabineti yanında Operativ Qərargahın Baş nazirin sədrliyi ilə keçirilmiş 23 mart 2020-ci il tarixli iclasında COVID-19 pandemiyası ilə mübarizədə müxtəlif ölkələrin təcrübəsi nəzərə alınaraq, əhalinin sağlamlığının qorunması ali məqsəd kimi qəbul edilərək koronavirus infeksiyasının ölkədə

yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə əsasən ölkəmizdə 24 mart 2020-ci il saat 00:00-dan etibarən xüsusi karantin rejiminin tətbiq edilməsi haqqında qərar qəbul olunmuşdur.

Bu qərara uyğun olaraq koronavirus təhlükəsi ilə əlaqədar bütün kütləvi tədbirlər ləğv edilmiş, təhsil müəssisələrində tədris, təlim və tərbiyə prosesi dayandırılmış, ölkəmizin quru sərhədləri bağlanılmış, şəhər və rayonlara giriş-çıxış məhdudlaşdırılmış, xəstəliklə mübarizənin gücləndirilməsi məqsədilə xüsusi karantin rejimi mərhələli şəkildə sərtləşdirilmişdir. Bu müddət ərzində epidemiyanın Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması üçün bütün sahələr və istiqamətlər üzrə lazımi tədbirlər görülmüş və görülməkdədir. Atılmış bütün addımların əsas məqsədi əhalinin sağlamlığının və həyatının qorunmasıdır.

Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən koronavirusla mübarizə tədbirləri çərçivəsində göstərilən təşkilati dəstək nəticəsində bütün sosial xidmət müəssisələrində Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi qaydalara və sosial təcrid rejiminə əməl olunması təmin edilir.

Əhalinin sosial cəhətdən həssas qruplarından biri kimi əlilliyi olan şəxslərin və yoluxma riski yüksək olduğuna görə yaşlı insanların yeni növ koronavirus infeksiyasından qorunması, onların sağlamlığının etibarlı qorunması üçün mütəmadi olaraq bütün sosial xidmət müəssisələrində sanitar-gigiyenik vəziyyətə ciddi nəzarət həyata keçirilir, virus əleyhinə dezinfeksiya işləri aparılır, bütün sakinlər mütəmadi olaraq müayinələrdən keçirilir, dezinfeksiyaedici və qoruyucu vasitələrlə təmin edilir, onlara və işçi heyətə infeksiyadan qorunma qaydaları barədə maarifləndirici məlumatlar verilir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən COVID-19 pandemiyası dövründə insan hüquqlarının daha səmərəli müdafiəsi məsələlərinə diqqətin daha da artırılması istiqamətində bir sıra zəruri addımlar atılmış, bununla əlaqədar müvafiq təklif və tövsiyələr irəli sürülmüşdür.

İlk növbədə qeyd etmək lazımdır ki, ölkəmizdə mövcud pandemiya ilə bağlı tətbiq edilən xüsusi karantin rejimi çərçivəsində vətəndaşların Ombudsmanın Aparatında və regional mərkəzlərində qəbulunun müvəqqəti olaraq dayandırılmasına baxmayaraq əhaliyə müraciət etmək üçün alternativ imkanlar yaradılmışdır.

Belə ki, hər bir kəs, o cümlədən əlilliyi olan şəxslər və sosial baxımdan həssas əhali qruplarına aid edilən digər insanlar poçt, onlayn müraciət, e-mail, faks, sosial şəbəkələr ("Facebook", "Twitter"), habelə 7/24 rejimində xidmət göstərən 916 nömrəli Çağrı Mərkəzi vasitəsilə Ombudsman Aparatına müraciət edə bilirlər. Daxil olan bütün müraciətlərə hər zaman çox böyük həssaslıqla ya-

naşılır, qaldırılan məsələlərin həlli ilə bağlı operativ olaraq təcili addımlar atılır.

Eyni zamanda, Müvəkkilin Gəncə, Şəki, Quba və Cəlilabadda yerləşən regional mərkəzlərinin əhatə dairəsinə daxil olan şəhər və rayonlardan göndərilən müraciətlərin yerində araşdırılması, mövcud pandemiya şəraiti ilə əlaqədar olaraq əsasən onlayn formatda, eləcə də zəruri sosial davranış və sanitar-epidemioloji tələblərə uyğun hüquqi maarifləndirmə işinin həyata keçirilməsi sosial baxımdan həssas əhali qruplarından biri kimi əlilliyi olan şəxslərin də hüquqlarının səmərəli təmini üçün əlavə imkanlar yaradır.

COVID-19 pandemiyası ilə bağlı Ombudsman xalqa müraciət edərək müvafiq preventiv və profilaktik tədbirlərin gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin ölkəmizdə əhali arasında COVID-19 infeksiyasına yoluxma hallarının qarşısının alınması, həssas qruplardan biri kimi yaşlı insanların, uşaqların, o cümlədən əlilliyi olan şəxslərin sağlamlığının qorunması məqsədinə xidmət etdiyini, buna görə də hər bir şəxsi, bütövlükdə əhalini ölkə rəhbərliyinin, ÜST-nin, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarına, təklif və tövsiyələrinə qeyd-şərtsiz riayət etməyə çağırmış, yeni növ koronavirus üçün xarakterik simptomları hiss edən şəxslərə aidiyyəti üzrə qaynar xətlərə (103 və ya 15-42) zəng etməyi tövsiyə etmişdir [3].

Ölkəmizdə COVID-19 pandemiyasına qarşı mübarizə ilə bağlı xüsusi karantin rejiminin tətbiq olunduğu ilk dövrlərdə əhalinin sosial cəhətdən həssas qruplarından biri kimi əlilliyi olan şəxslərin tibbi spirt, maska, əlcək, habelə digər infeksiya əleyhinə vasitələrə, müxtəlif xəstəliklərdən əziyyət çəkənlərin isə müayinə, müalicə və reabilitasiya xidmətlərinə, zəruri dərman preparatlarına, kommunal xidmət xərclərinin ödənilməsində onlar üçün güzəştlərin edilməsinə, infeksiyadan qorunma üsulları və sosial izolyasiya tədbirləri ilə bağlı ətraflı informasiya əldə etmələrinə daha çox ehtiyacları var idi.

Bütün bunlar nəzərə alınaraq COVID-19 infeksiyasının yayılması ilə əlaqədar əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı dövlət və yerli özünüidarə orqanlarına, vəzifəli şəxslərə, digər idarə, müəssisə və təşkilatlara, sahibkarlıq subyektlərinə Müvəkkil tərəfindən açıq müraciət ünvanlanaraq, pandemiya şəraitində əlilliyi olan şəxslərə qayğının daha da artırılmasının zəruriliyi diqqətə çatdırılmışdır [4].

Müraciətdə BMT-nin Əlilliyi olan şəxslərin hüquqları üzrə Xüsusi Məruzəçisinin dünyada COVID-19 pandemiyasının yayıldığı dövrdə əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə dair bəyanatında qeyd olunmuş müvafiq çağırışlar da nəzərə alınmaqla onların sosial-hüquqi müdafiəsinin səmərəli şəkildə təmin edilməsi məqsədilə aşağıdakı təkliflər irəli sürülmüşdür:

1. Aztəminatlı ailədən olan, habelə özünəqulluq qabiliyyəti olmayan və tənha yaşayan əlilliyi olan şəxslərin mütəmadi olaraq infeksiya əleyhinə vasitələrlə (tibbi spirt, maska və əlcək) təmin edilməsi;
2. Müxtəlif xəstəliklərdən əziyyət çəkən əlilliyi olan şəxslərin səyyar formada müayinə, müalicə və reabilitasiya xidmətlərinə cəlb edilməsi;

3. Dispanser qeydiyyatında olmaqla əlilliyi olan, habelə risk qrupuna düşən müxtəlif xəstəliklərdən əziyyət çəkən şəxslərin yaşayış yeri üzrə zəruri dərman preparatları ilə təcili olaraq təmin olunması;

4. Əlilliyi olan şəxslərə kommunal xidmət xərcləri ilə bağlı təcili olaraq müvafiq güzəştlərin tətbiq edilməsi;

5. Yaşayış yeri olmayan əlilliyi olan şəxslər müəyyən edildikdə onların dərhal həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinə yerləşdirilməsi ilə bağlı təcili tədbirlərin görülməsi;

6. Koronavirus infeksiyası ilə mübarizə üzrə qəbul edilən qərarlar, təklif və tövsiyələr, habelə, infeksiyadan qorunma üsulları barədə məlumatların əlilliyi olan şəxslərə, o cümlədən görmə və eşitmə məhdudiyyətli insanlara çatımlılığının təmin edilməsi məqsədilə müvafiq formatda (tiflo və surdo şərhlə) televiziya verilişlərinin, habelə onlayn proqramların yayımlanması və bu mövzuda Brayl əlifbası ilə bukletlerin çap edilməsi;

7. Pensiya, müavinət, təqaüd kartlarının, əlilliyi olan müştərilərin vaxtı bitən kartlarının müvafiq banklar tərəfindən korporativ sosial məsuliyyət strategiyası çərçivəsində xüsusi karantin rejimi müddətinə uzadılması;

8. Sahibkarlıq subyektlərinin mövcud vəziyyəti nəzərə alaraq əlilliyi olan işçilərinə diqqət və dəstəyinin artırılması.

Bundan əlavə müraciətdə əlilliyi olan şəxslər də daxil olmaqla sosial baxımdan həssas əhali qrupları barəsində sosial müdafiə xarakterli tədbirlərin həyata keçirilməsi zamanı proporsionallıq, zərurilik və ayrı-seçkiliyin yol verilməzliyi prinsiplərinə əməl edilməsinin əhəmiyyətinin nəzərə alınması tövsiyə edilmişdir.

Qeyd olunan təklif və tövsiyələrin bir çoxu artıq aidiyyəti qurumlar tərəfindən nəzərə alınmışdır ki, bu da COVID-19 pandemiyası dövründə əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Ombudsman təsisatı pandemiya dövründə də əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsini daim diqqət mərkəzində saxlayır. Müvəkkilin BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasında nəzərdə tutulmuş müstəqil monitorinq mexanizmin, habelə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarının icrası çərçivəsində əvvəlcədən xəbərdarlıq edilmədən psixiatriya, sosial və penitensiar xidmət müəssisələrində, habelə saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərdə monitorinq və başçəkmələr həyata keçirilir. Bu zaman həmin əlilliyi olan şəxslərə yaradılmış şəraitin müyəssərliyi, qidalanma, tibbi və sosial xidmətlərə çıxış imkanları, COVID-19 infeksiyası ilə əlaqədar məlumatlandırma tədbirləri və bununla bağlı çap materiallarının paylanması, görünən yerlərdə asılması yerində yoxlanılır, olmayan yerlərdə isə təcili təmini məsələləri qaldırılır.

Müvəkkilin tapşırığına əsasən Milli Preventiv Qrupun (MPQ) üzvləri, o cümlədən Müvəkkilin Gəncə və Şəki regional mərkəzlərinin nümayəndələri

tərəfindən COVID-19 infeksiyasına qarşı görülən qabaqlayıcı tədbirlərin və sanitariya vəziyyətinin öyrənilməsi üçün Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Bakı İstintaq Təcridxanasına, 10 və 17 saylı cəzaçəkmə müəssisələrinə, 2 saylı İstintaq Təcridxanasına və Şəki Penitensiar Müəssisəsinə, habelə Daxili İşlər Nazirliyinin İnzibati Həbs Olunanların Saxlama Mərkəzinə plandankənar başçəkmələr həyata keçirilmişdir [5].

Bundan əlavə, Müvəkkilin xüsusi tapşırığı ilə Aparatın əməkdaşları tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 1, 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində, 1, 2, 3 saylı psixonevroloji sosial xidmət müəssisələrində, ahıl şəxslər üçün sosial xidmət müəssisəsində, Gəncə Şəhər Pensiyaçıların Ərazi Sosial Xidmət Mərkəzində, Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsində yaşayan xüsusi qayğıya ehtiyacı olan şəxslərin hüquqlarının xüsusi karantin rejimi şəraitində təmini vəziyyəti müvafiq qaydada araşdırılaraq öyrənilmiş və onların məlum infeksiyadan qorunması istiqamətində görülən işlər haqqında məlumat verilmişdir [6].

MPQ-nin ixtisasca həkim üzvünün də iştirak etdiyi başçəkmələr zamanı həmin müəssisələrin girişində daxil olan şəxslərin hərarətinin ölçülməsi üçün tibb işçisinin xidmət apardığı, həmçinin şəxslərin əllərinin xüsusi dezinfeksiyaedici məhlulla təmizlənməsinin təşkil edildiyi, məhkumların və saxlanılan şəxslərin gündəlik məlumatlandırıldığı, müayinələrin aparıldığı müşahidə olunmuşdur. Eyni zamanda Penitensiar Xidmətin təsdiq etdiyi müvafiq qaydalara əsasən, preventiv tədbirlər məqsədilə sovqatların göndərilməsi və kənar şəxslərin məhkumlar və saxlanılan şəxslərlə görüşlərinin məhdudlaşdırıldığı müəyyən edilmişdir.

Ombudsmanın MPQ üzvləri tərəfindən müəssisələrdə sanitar-dezinfeksiya tədbirlərinin mütəmadi olaraq davam etdirilməsi, əməkdaşların qoruyucu maska və əlcəklərdən istifadə etmələrinə nəzarətin gücləndirilməsi, onların xidmətdən kənar vaxtlarda Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi sosial izolyasiya tədbirlərinə ciddi riayət etmələrinin vacibliyi vurğulanmışdır.

Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanma şəraiti ilə bağlı məsələlər Ombudsmanın diqqət mərkəzindədir və monitorinqlər davam etdirilir.

COVID-19 pandemiyasının qarşısının alınması tədbirləri çərçivəsində əlilliyi olan şəxslərin, törətdiyi əməldən səmimi peşman olan, islah olunmuş və cəmiyyət üçün artıq təhlükə törətməyən çoxuşaqlı məhkum anaların, habelə yetkinlik yaşına çatmayan, 60 yaşını keçmiş, səhhətində ciddi problemləri olan məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl azad olunması məsələsinə baxılarkən qanunvericiliyin tələblərinə, habelə humanizm prinsipinə əsaslanaraq bu məhkumlar barədə təqdimat verilməsi ilə bağlı Ombudsman tərəfindən müvafiq qurumlara müraciətlər edilmişdir [7].

Təqdirəlayiq haldır ki, son illər ölkə Prezidenti tərəfindən insan hüquqlarının qorunması sahəsində həyata keçirilən mütərəqqi islahatlar nəti-

cəsində cəza-icra siyasətinin humanistləşdirilməsi fonunda məhkum edilmiş bir sıra şəxslərin əfv olunması zamanı bu təkliflər də nəzərə alınmışdır.

Qeyd olunmalıdır ki, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2020-ci il 01 may tarixli Qanunun icrası ilə əlaqədar penitensiar və probasiya xidmətləri üzrə pandemiya dövründə 334 nəfər tamamilə cəzadan azad olunmuş, 591 nəfərin isə cəza müddəti azaldılmışdır. Eyni zamanda 2020-ci ildə 2072 məhkum cəzadan şərti azad edilmiş, 422 məhkum məntəqə tipli cəzaçəkmə müəssisələrinə keçirilmiş, 10 məhkum ağır xəstəliyə görə azadlığa buraxılmış, 906 nəfərin həbs qətimkan tədbiri dəyişdirilmişdir [8]. Həmçinin koronavirus pandemiyası ilə əlaqədar yaşı 65 yaşdan yuxarı olan 176 nəfər ölkə başçısının 2020-ci il 6 aprel tarixli sərəncamı ilə əfv olunaraq cəzasının çəkilməmiş hissəsindən azad edilmişdir [9].

Müvəkkilin MPM fəaliyyəti çərçivəsində dövlət uşaq müəssisələrindəki mövcud vəziyyət nəzarətdə saxlanılmaqla, mövcud imkanlar, uşaqların hüquqlarının təmini, onlarla rəftar, saxlanma şəraiti, gender məsələləri və əlilliyi olanların da vəziyyəti nəzərə alınmaqla effektiv tibbi xidmətlərin təşkili və əlçatanlığı araşdırılmış, məsul şəxslər və qurumlarla müzakirələr aparılmışdır [10]. Bu ərəfədə internat müəssisələrində yaşayan uşaqlar ailələrinə verilmiş, uşaq evlərində yaşayan və ailələrinə verilmiş uşaqların müəssisələrə geri qayıdışı dayandırılmış, digər qrup müəssisələrdə isə xüsusi karantin rejimi və sosial izolyasiya tədbirləri gücləndirilmişdir.

Araşdırmanın yekunu olaraq verilmiş tövsiyələrdə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına, COVID-19 infeksiyası ilə bağlı BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Təlimatına, İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitənin tövsiyəsinə və İşgəncələrin Qarşısının Alınması üzrə Avropa Komitəsinin qəbul etdiyi prinsiplər əsasında uşaq evlərində, təhsil, səhiyyə və sosial xidmət müəssisələrində yaşayan uşaqlar və onlarla işləyən şəxslərin pandemiya ilə bağlı bacarıqlara əsaslanan məlumatlandırılmaları, uyğun rəftar və saxlanma şəraitinə nəzarətin gücləndirilməsi, təminat və digər məsələlərlə bağlı müraciətlərin, internet və telefon vasitəsilə alternativ ünsiyyət imkanlarının təmin edilməsi, tibbi və digər sosial xidmətlərə çıxış imkanlarının genişləndirilməsi məsələləri yer almışdır.

Ombudsman ölkəmizdə irsi qan xəstəliklərindən, o cümlədən talassemiyadan əziyyət çəkən uşaqların sağlam insan qanına ehtiyacını nəzərə alaraq dəfələrlə ictimaiyyətin diqqətini bu məsələyə yönəltmiş, müxtəlif vaxtlarda qanvermə aksiyaları keçirilmişdir. Ombudsman Aparatının bir sıra əməkdaşları da öz təşəbbüsləri ilə talassemiya xəstəliyindən əziyyət çəkən uşaqlara dəstək olmaq üçün könüllü qan vermişlər. Qeyd edilməlidir ki, irsi qan xəstəliyi olan talassemiyanın müalicəsində qanköçürmə mühüm rol oynayır. Qanvermə həkim nəzarəti altında həyata keçirilir və yalnız sağlamlıq vəziyyəti buna imkan verən şəxslərdən götürülür. Ombudsman Aparatının əməkdaşları sağlamlığı və yaşı qan vermək üçün uyğun olan hər bir insanı aksiyada fəal iştirak etməyə çağırmışlar [11].

COVID-19 pandemiyası ilə əlaqədar ayrı-ayrı vətəndaşlar və korporativ sosial məsuliyyət strategiyası çərçivəsində müxtəlif özəl şirkətlər, fərdi sahibkarlar tərəfindən sosial baxımdan həssas əhali qruplarından olan insanlara mövcud imkanlar daxilində maddi və mənəvi dəstəyin göstərilməsi onların rifah halının yaxşılaşması və xüsusi karantin rejiminin tətbiq olunduğu şəraitdə mühüm əhəmiyyətə malik "Biz birlikdə güclüyük", "Evdə qal – Sağlam ol" və digər bu kimi şüarlarla həyata keçirilən kampaniyanın geniş təbliği baxımından çox önəmli olmuşdur.

Ombudsman təsisatı da həmin xeyirxah aksiyaya qoşularaq paytaxtda və regionlarda aztəminatlı ailələrə, yaşı 65-dən yuxarı tənha yaşayan insanlara, eləcə də tənha yaşayan və özünəqulluq qabiliyyəti olmayan əlilliyi olan şəxslərə müxtəlif ərzaq məhsullarından ibarət sovqat paylanılmasını təşkil etməklə onlara dəstək göstərmişdir [12].

Ölkəmizdə COVID-19 pandemiyasının qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər insanların sağlamlığının qorunması baxımından böyük əhəmiyyətə malikdir. Buna görə də pandemiya dövründə əhalinin müxtəlif sosial qruplarının, o cümlədən əlilliyi olan şəxslərin sosial-hüquqi müdafiəsinin daha da gücləndirilməsi daim diqqət mərkəzində saxlanılmalıdır.

**ƏDƏBİYYAT**


1. https://www.who.int/en/director-general/speeches/detail/who-director-general-s-opening-remarks-at-the-media-briefing-on-covid-19---11-march-2020
2. http://e-qanun.az/framework/45548
3. https://ombudsman.az/az/view/news/1755/azerbaycan-respublikasinin-insan-huquqlari-uzre-muvekkilinin-ombudsmanin-yeni-nov-koronavirus-covid-19-epidemiyasi-ile-bagli-xalqa-muracieti
4. https://ombudsman.az/az/view/news/1758/azerbaycan-respublikasinin-insan-huquqlari-uzre-muvekkilinin-ombudsmanin-koronavirus-covid-19-infeksiyasinin-yayilmasi-ile-elaqedar-elilliyi-olan-shexslerin-huquqlarinin-mudafiesi-ile-bagli-dovlet-ve-
5. https://ombudsman.az/az/view/news/1747/koronavirus-infeksiyasina-qarshi-gorulen-qabaqlayici-tedbirlerin-ve-sanitar-gigiyenik-veziyyetin-oyrenilmesi-uchun-ombudsmanin-milli-preventiv-qrupu-terefinden-silsile-monitorinqler-davam-etdirilir-
6. https://ombudsman.az/az/view/news/1799/sosial-xidmet-muessiselerindeki-elilliyi-olan-shexslerin-ve-ahillarin-huquqlarinin-mudafiesi-ombudsmanin-diqqet-merkezindedir
7. https://meclis.gov.az/documents/02.04.2021.PDF.pdf
8. https://report.az/hadise/oten-il-2072-mehkum-cezadan-serti-azad-edilib/
9. http://e-qanun.az/framework/44847
10. https://ombudsman.az/az/view/news/1762/azerbaycan-respublikasinin-insan-huquqlari-uzre-muvekkilinin-ombudsmanin-olkede-yeni-nov-koronavirus-covid-19-infeksiyasinin-yayilmasinin-qarshisinin-alinmasi-ile-bagli-fealiyyeti-cherchivesinde-usha
11. https://ombudsman.az/az/view/news/1798/ombudsman-aparatinin-emekdashlari-konullu-qan-veribler
12. https://ombudsman.az/az/view/news/1805/ombudsman-aparati-azteminatli-ailelere-erzaq-yardimlari-edib

## РОЛЬ ОМБУДСМЕНА В ЗАЩИТЕ ПРАВ ЛИЦ С ИНВАЛИДНОСТЬЮ В УСЛОВИЯХ ПАНДЕМИИ

**С.Я.АЛИЕВА**

### РЕЗЮМЕ

В данной статье, посвященной актуальной для современности проблемы, анализируется деятельность Уполномоченного по правам человека Азербайджанкой Республики (Омбудсмена) в сфере более эффективной защиты прав лиц с инвалидностью в период пандемии коронавируса нового типа (COVID-19), а также соответствующие предложения и рекомендации с научной и практической точки зрения. Кроме того представлена информация о мониторинге мест нахождения лиц с инвалидностью, которые они не могут покинуть по собственному желанию.

**Ключевые слова:** коронавирус (COVID-19), пандемия, карантинный режим, защита прав лиц с инвалидностью, Омбудсмен, предложения, механизм мониторинга, Национальный Превентивный Механизм.

## ROLE OF THE OMBUDSMAN IN THE PROTECTION OF THE RIGHTS OF PERSONS WITH DISABILITIES IN THE SITUATION OF PANDEMIC

**S.Y.ALIYEVA**

### SUMMARY

This article focused on a very topical issue for the modern period, analyzes the activity of the Commissioner for Human Rights (Ombudsman) of the Republic of Azerbaijan for more effective protection of the rights of persons with disabilities during the novel coronavirus (COVID-19) pandemic, as well as relevant proposals and recommendations made by the Ombudsman from the scientific and practical point of view. It also illustrates the information about the monitoring and visits conducted to the places, which persons with disabilities cannot leave at will.

**Keywords:** coronavirus (COVID-19), pandemic, quarantine regime, protection of the rights of persons with disabilities, Ombudsman, proposals, monitoring mechanism, National Preventive Mechanism